

# Gənclər Ali Baş Komandanın ətrafında birləşiblər

**Tarixin müxtəlif dövrlərində Azərbaycan xalqı çox çətin sınaqlarla üzləşib, ağır mübarizələrdən keçib. Hər zaman humanist, qonaqpərvər və səxavətli olan bu xalqın zəngin təbii sərvətləri, təəssüf ki, ona şöhrət gətirməklə yanaşı, problemlər də yaradıb. Azərbaycanın əraziləri ayrı-ayrı əsrlərdə işğala məruz qalıb.**

Sonuncu işğal XX əsrin axırlarında baş verib. İllərboyu sığındıqları, mehribanlıq, xoş münasibət gördükləri azərbaycanlılara silah qaldıran ermənilər xaricdən aldıqları hər cür yardım, dəstək sayəsində məqsədlərinə çata bildilər. 1990-cı illərdə baş verən və tariximizə Birinci Qarabağ müharibəsi adı ilə yazılan o illərdə qəsbkar ermənilər torpaqlarımızın iyirmi faizini işğal etdilər. Minlərlə azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. Qəddar düşmən nəinki qocalara, qadınlara, uşaqlara, hətta yataqdan qalxa bilməyən ağır xəstələrə, südəmər körpələrə belə acıyıb rəhm etmədi, onları əzab-əziyyətlər verərək öldürdü. Öz dədə-baba yurdlarından, zəhmətlə tikdikləri evlərindən, isti ocaqlarından baş götürüb qaçanların da bir çoxunun aqibəti acınacaqlı oldu. Bu insanlar o dövrün müasir silahları ilə silahlanmış yağı düşmənlərin pusqusuna düşdülər.

Əsir və girov götürdükləri şəxslərlə necə amansız davrandıqlarını erməni vandallarının özləri də qürrələnə-qürrələnə etiraf edirdilər. Birinci Qarabağ müharibəsində onlar azərbaycanlı əsir və girovlara elə divan tutdular ki, insanlıq adına ləkə olduqlarına zərrəcə şübhə qoymadılar.

## Ali Baş Komandan Azərbaycan xalqının heç vaxt işğalla barışmayacağını bəyan edirdi

Birinci Qarabağ müharibəsində evlərini, yurdlarını tərk etmək məcburiyyətində qalan bir milyondan çox soydaşımızın problemləri ölkədə vəziyyəti çətinləşdirdi. İşğalçı ermənilər həm də külli miqdarda maddi ziyan vurmuşdular. Azərbaycan bu problemlərin həll edilməsi, haqq səsinin dünyada eşidilməsi, ədalətin bərpa olunması istiqamətində uzun illər qətiyyətli mübarizə apardı. Bu illər ərzində dövlətimiz münaqişəni sülh yolu ilə həll etməyin tərəfdarı olduğunu sübut etdi. Təəssüf ki, Ermənistan işğalçılıq niyyətindən əl çəkmirdi. Və beynəlxalq təşkilatlar buna görə qəsbkar dövlətə layiq olduğu cəzanı vermirdi.

Mübarizələr içərisində otuz il keçdi. Bu illər ərzində dünyaya gələn körpələr böyüyüb boya-başa çatdılar. Onlar həyatı dərk etməyə başlayandan mənsub olduqları Azərbaycan xalqını, Azərbaycan dövlətini haqqın, ədalətin bərqərar olması uğrunda mübarizələrdə gördülər. Dövlət başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev bəyan edirdi ki, biz heç vaxt işğalla barışmayacağıq.

Ermənistan silahlı qüvvələri işğalı davam etdirdiyi dövrdə, atəşkəs barədə razılaşma olsa da təxribatlarından əl çəkmirdi. Azərbaycan Ordusunun mövqelərini, eyni zamanda mülki əhalinin yaşayış məntəqələrini iriçaplı silahlardan intensiv atəşə tuturdular. Nəticədə əsgər və zabitlərimiz, dinc sakinlər şəhid olurdular.

Azərbaycan Silahlı Qüvvələri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gündən-günə peşəkarlığını artırmaqda, güclənməkdə idi. Ordumuz düşmənə məkrli niyyətlərini həyata keçirməyə imkan vermirdi. Ermənistan silahlı qüvvələrinin təxribatçı hücumlarının qarşısı qətiyyətlə alınırdı. 2016-cı ildə yenə də Ermənistan tərəfinin təxribatı nəticəsində baş verən Aprel döyüşlərini, əslində, düşmən xəbərdarlıq kimi qəbul etməli idi. O zaman Prezident İlham Əliyev bildirdi ki, ordumuzun gücünü düşmən də gördü: "Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar ərazilərə biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır. İnsanlar qayıdıblar, yeni qəsəbə salınıb. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü göstərir, Azərbaycan xalqının yenilməz ruhunu göstərir. Bu onu göstərir ki, Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayacaq və biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq".

## "Qarabağ Azərbaycandır və nida"

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının arzularını ifadə edirdi. Hər bir azərbaycanlını inandırırdı ki, yurd itkisi əbədi olmayacaq. Məcburi köçkünlər bir gün geri dönəcəklərini, düşmənin uçurub dağıtdığı, od vurub yandırdığı evlərinin yenidən inşa olunacağını düşünərək xəyallarını quraraq yaşayırdılar. Dövlət başçısı qətiyyətlə bildirirdi: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar. Qarabağ Azərbaycandır və nida".

2020-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter aldı. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatı İkinci Qarabağ müharibəsinin başlanması ilə nəticələndi. Prezident İlham Əliyev həmin gün Azərbaycan xalqına müraciətində mənfur düşmənin bədnam niyyətini açıqladı: "Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir".

## Qətiyyətli, mərd, igid, vətənpərvər Azərbaycan gəncləri

Həmin gün dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev düşmənin hərbi təxribatlarının qarşısını almaq üçün qismən səfərbərlik elan etdi. Azərbaycan xalqı Vətən torpaqlarını Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək üçün sıx birləşdi.

O gün Azərbaycanın bütün bölgələrində yaşayan gənclərimiz torpaqlarımızın işğaldan azad olunması uğrunda mübarizəyə qoşulmaq üçün Ali Baş Komandan İlham Əliyevin bir əmrinə müntəzir olduqlarını göstərdilər. İlham Əliyev "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - dedi və bu haqq işi uğrunda minlərlə Azərbaycan gənci ayağa qalxdı.

Ali Baş Komandanın çıxışından daha da ruhlanan gənclərimiz Zəfərə sonsuz inamla cəbhəyə könüllü getmək üçün hərbi komissarlıqlara müraciət etdilər. Və mərd oğullar müharibənin ilk günlərindən qələbə əzmi ilə döyüşdülər.

İkinci Qarabağ müharibəsi barədə çox uzun illər danışılacaq və yazılacaq. Bu müharibə, əslində, Azərbaycan dövləti, Azərbaycan xalqı barədə bir çox həqiqəti yenidən dostların da, düşmənlərin də diqqətinə çatdırdı. Bunların ən ümdələrindən biri Azərbaycan gəncliyinin vətənpərvərliyidir. Hələ çox gənc olan oğullar ömürlərini Vətənə qurban verməyi seçdilər. Can şirin, həyat gözəl olsa da, ölümün gözlərinə dik baxmağı bacardılar. Düşmən güllələrinə sinələrini sipər etdilər. Dostlar da, düşmənlər də gördülər ki, İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun üstünlüyü yalnız müasir silahlarla döyüşə girməsində deyildi. Gənclər bir yumruq kimi birləşmiş Azərbaycan dövlətinin və Azərbaycan xalqının mənəvi gücünü hər an hiss edərək, ürəklərində Vətən sevgisi ilə döyüşə atılırdılar. Prezident İlham Əliyev xalqa müraciətlərinin birində xüsusi olaraq qeyd edir: "Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil".

Azərbaycan Ordusu düşmənin hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə sarsıdıcı zərbə vurdu. 44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycan gənclərində torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu göstərdi. Onların qarşısında, döyüş əməliyyatlarında Ermənistan ordusunun əsgərləri mövqelərini, hərbi texnikasını, silah-sursatını qoyub qaçdılar.

Gənclərimiz yalnız döyüş meydanında deyil, həm də informasiya müharibəsində vətənpərvərlik hisslərini nümayiş etdirdilər.

İkinci Qarabağ müharibəsi Ermənistan dövləti, Ermənistan silahlı qüvvələri üçün əbədi ibrət dərsi olmalıdır. Çünki Prezident, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan yalnız öz möhtəşəm hərbi gücünü göstərərək Ermənistanı məğlubiyyətə uğradıb otuz ilə yaxın işğal altında qalan ərazilərini azad etmədi, eyni zamanda Azərbaycan gənclərinin dövlətinə və xalqına sədaqətini dünyaya nümayiş etdirdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*